**Azərbaycan Respublikası**
**Daxili İşlər Nazirliyi**

**Polis Akademiyası**

**"Daxili işlər orqanlarının inzibati fəaliyyəti"**
**kafedrası**

**Azərbaycan Respublikası DİN-in**
**Polis Akademiyasının müdavimləri üçün**

# "DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ"

**fənni üzrə**

**TƏDRİS PROQRAMI**

**("DİO-nun inzibati fəaliyyəti" – 2,3)**
**Xususi hissə**

**Bakı – 2013**

**Elmi redaktorlar:**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının rəisi, polis general-mayoru, hüquq üzrə fəlsəfə doktoru
**Nazim Əliyev**

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası rəisinin tədris və elmi işlər üzrə müavini, polis polkovniki, hüquq elmləri doktoru, əməkdar müəllim **Mahir Əhmədov**
.
**Tərtib edənlər:**
"DİO-nun inzibati fəaliyyəti" kafedrasının
rəisi, polis polkovniki **Vaqif Abışov**

Kafedranın baş müəllimləri,
polis polkovnik-leytenantı **Aleksandr İsmayılov**
polis polkovnik-leytenantı **Vüqar Mansurov**

kafedranın müəllimi, hüquq üzrə fəlsəfə doktoru
polis polkovnik-leytenantı **Şahin Şükürov**

Rəy verənlər: Azərbaycan Respublikası DİN-in
Baş İctimai Təhlükəsizlik İdarəsi

Bakı Dövlət Universiteti

*Tədris proqramı Azərbaycan Respublikası təhsil nazirinin 27 sentyabr 2002-ci il tarixli 916 nömrəli əmri ilə təsdiq edilmiş proqram əsasında 2013-cü ildə Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının "Daxili işlər orqanlarının inzibati fəaliyyəti" kafedrasında yenidən hazırlanmışdır.*

*Tərtib edilmiş tədris proqramı Azərbaycan Respublikası DİN-in Polis Akademiyası Elmi Şurasının 14 mart 2013-cu il tarixli iclasının 3 nömrəli qərarı ilə təsdiq edilmiş və onun nəşrinə icazə verilmişdir.*

# ÖN SÖZ

Müstəqilliyimizin və suverenliyimizin möhkəmlən-dirilməsində əvəzsiz xidmətləri olan xalqımızın ümummilli lideri Heydər Əliyevin dövlətçilik ənənəsinə sadiq olan Azərbaycan polisi xidməti vəzifələrini daim şərəflə yerinə yetirən mühüm dövlət qurumlarından biridir.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində effektiv nəticələrin əldə edilməsi daxili işlər orqanlarının fəaliyyətinin elmi təməl üzərində qurulmasını, zəruri bilik və bacarıqlara, vərdişlərə yiyələnmiş gənc polis kadrlarının hazırlanmasını tələb edir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının «Daxili işlər orqanlarının inzibati fəaliyyəti» kafedrasının əməkdaşları tərəfindən hazırlanmış «Daxili işlər orqanlarının inzibati fəaliyyəti» fənninin xüsusi hissəsi üzrə tədris proqramı bu sahədə atılan uğurlu addımlardan biridir.

«Daxili işlər orqanlarının inzibati fəaliyyəti» fənnin xüsusi hissəsi kursun ümumi hissəsinin davamı olaraq Polis Akademiyasında tədris edilən vahid fənni təşkil edir.

«Daxili işlər orqanlarının inzibati fəaliyyəti» fənninin xüsusi hissəsi üzrə tədris proqramında əks etdirilən mövzular aşağıdakı qaydada qruplaşdırılmışdır:

– daxili işlər orqanlarının ictimai təhlükəsizlik xidmətlərinin əsas fəaliyyət istiqamətləri (I bölmə);

– polis orqanları tərəfindən ayrı-ayrı inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması (II bölmə);

– polis orqanlarının inzibati fəaliyyətinin xətt-sahəvi növləri (III bölmə);

– xüsusi şəraitlərdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi (IV bölmə).

Tədris proqramında nəzərdə tutulmuş mövzular üzrə seminar və təcrübə məşğələlərinə hazırlaşarkən tövsiyyə edilmiş ədəbiyyatların konspektləşdirilməsi zəruridir.

Proqram üzrə fənnin xüsusi hissəsinə 150 saat vaxt ayrılmışdır. «Daxili işlər orqanlarının inzibati fəaliyyəti» fənninin tədrisinin yekununda müdavimlər imtahan verir. Fənnin tədrisi dövlət imtahanının verilməsi ilə başa çatdırılır.

# XÜSUSİ HİSSƏ

| Sıra №-si | Mövzunun adı | Mövzunun tədrisinə ayrılmış vaxt | Dərsin növü | | | |
|---|---|---|---|---|---|---|
| | | | mühazirə | seminar | təcrübə dərsi | Yoxlama nəzarət dərsi |
| | | Saatların miqdarı | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| **DİO-nun inzibati fəaliyyəti – 2.<br>I bölmə: DİO-nun ictimai təhlükəsizlik xidmətlərinin əsas fəaliyyət istiqamətləri** | | | | | | |
| **1** | İctimai təhlükəsizlik xidmətinin məzmunu və əsasları | 4 | 2 | 2 | | |
| **2** | Polisin post-patrul xidmətinin işinin təşkili | 8 | 2 | 2 | 4 | |
| **3** | Polis orqanlarının müvəqqəti saxlama yerlərinin işinin təşkili | 6 | 2 | 2 | 2 | |
| **4** | Polis sahə inspektorlarının işinin təşkili | 8 | 2 | 2 | 4 | |
| **5** | Polis sahə inspektorlarının vətəndaşlarla xüsusi işinin təşkili | 8 | 2 | 2 | 4 | |
| **6** | Daxili işlər orqanlarının profilaktik fəaliyyətinin təşkili | 6 | 2 | 2 | 2 | |
| **7** | Ailə-məişət münasibətləri zəminində törədilən cinayətlərin profilaktikası üzrə daxili işlər orqanlarının fəaliyyətinin təşkili | 8 | 2 | 2 | 4 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **8** | Polisin nəzarəti altına vermə və ev dustaqlığı qətimkan tədbirlərinin tətbiq edilməsi sahəsində polis orqanlarının işinin təşkili | 6 | 2 | 2 | 2 | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| **9** | Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqpozmaların xəbərdar edilməsi və qarşısının alınması | 6 | 2 | 2 | 2 | |
| | **DİO-nun inzibati fəaliyyəti – 3.**<br>**II bölmə: Polis orqanları tərəfindən ayrı-ayrı inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması** | | | | | |
| **10** | İctimai qayda, ictimai təhlükəsizlik və idarəçilik qaydaları əleyhinə olan inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması | 8 | 2 | 2 | 4 | |
| **11** | Narkotik vasitələrlə bağlı və ictimai mənəviyyat əleyhinə olan xətaların xəbərdar edilməsi və qarşısının alınması | 8 | 2 | 2 | 4 | |
| | **III bölmə: Polis orqanlarının inzibati fəaliyyətinin xətt-sahəvi növləri** | | | | | |
| **12** | Təbiətin mühafizəsi sahəsində daxili işlər orqanlarının fəaliyyəti | 6 | 2 | 2 | 2 | |
| **13** | Daxili işlər orqanları tərəfindən xüsusi icazə sisteminə nəzarətin həyata keçirilməsi | 8 | 2 | 2 | 4 | |
| **14** | Daxili işlər orqanlarının pasport-qeydiyyat fəaliyyəti | 8 | 2 | 2 | 4 | |
| **15** | Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olmaları qaydalarına riayət edilməsinə nəzarətin təmin edilməsi. | 6 | 2 | 2 | 2 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **16** | Dövlət yol polisi xidməti | 6 | 2 | 2 | 2 | |
| **17** | Nəqliyyatda daxili işlər orqanlarının xidməti | 6 | 2 | 2 | 2 | |
| **18** | Daxili işlər orqanlarının mühafizəsi xidməti | 6 | 2 | 2 | 2 | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| | **IV bölmə: Xüsusi şəraitlərdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi** | | | | | |
| **19** | Kütləvi tədbirlərin keçirilməsi zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi | 8 | 2 | 2 | 4 | |
| **20** | İctimai qaydanın qrup halında pozulmasının və kütləvi iğtişaşların xəbərdar edilməsi və qarşısının alınmasında daxili işlər orqanlarının fəaliyyəti | 8 | 2 | 2 | 4 | |
| **21** | Təbii fəlakətlər, epidemiya, epizootiya və texniki qəzalar şəraitlərində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi | 6 | 2 | 2 | 2 | |
| | ***YND*** | 2 | | | | 2 |
| **22** | Fövqəladə vəziyyət rejimi və dini etiqad azadlığının təmin edilməsində DİO-nun fəaliyyəti | 4 | 2 | 2 | | |
| | **Xüsusi hissəyə ayrılmış saatların cəmi** | **150** | **44** | **44** | **60** | **2** |

# *XÜSUSİ HİSSƏ*
## *DİON-nun inzibati fəaliyyəti – 2.*

## I BÖLMƏ

## Daxili işlər orqanlarının ictimai təhlükəsizlik xidmətlərinin əsas fəaliyyət istiqamətləri

## MÖVZU № 1
## İctimai təhlükəsizlik xidmətinin məzmunu və əsasları

*Vaxt – 4 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*

### Mühazirənin qısa məzmunu

İctimai təhlükəsizlik xidmətinin anlayışı, təyinatı, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində rolu. İctimai təhlükəsizlik xidmətinin səciyyəvi xüsusiyyətləri. Azərbaycan Respublikasında ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasları.

DİN-in ictimai təhlükəsizlik xidmətinin və onun struktur bölmələrinin fəaliyyətinin prinsipləri. İctimai təhlükəsizlik xidmətinin fəaliyyətinin əsas istiqamətləri ,forma və metodları.

İctimai təhlükəsizlik xidmətinin əsas vəzifələri, funksiyaları, sistemi və quruluşu. İctimai təhlükəsizlik xidmətinin qüvvə və vasitələri.

DİN-in ictimai təhlükəsizlik xidmətinin və onun struktur bölmələrinin işinin təşkili və onlara rəhbərlik. İctimai təhlükəsizlik xidməti əməkdaşlarının hüquq və vəzifələri. Baş ictimai təhlükəsizlik idarəsi rəisinin hüquq və vəzifələri.

İctimai təhlükəsizlik xidmətinin DİO-nun digər xidmətləri, bölmələri, dövlət orqanları və ictimai birliklərlə qarşılıqlı əlaqəsi.

## MÖVZU № 2
## Polisin post-patrul xidmətinin işinin təşkili

*Vaxt – 8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə– 4 saat*

### Mühazirənin qısa məzmunu

Polisin post-patrul xidmətinin anlayışı, təyinatı, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində rolu. Azərbaycan Respublikasında post-patrul xidmətinin fəaliyyət prinsipləri.

Polisin post-patrul xidmətinin işinin təşkilinin əsasları. Polisin post-patrul xidməti naryadlarının əsas hüquqları və vəzifələri, fəaliyyətinin hüquqi nizamlanması. Polisin post-patrul xidməti naryadlarının növləri.

Polisin post-patrul xidmətinin əsas vəzifələri və fəaliyyətinin istiqamətləri, həyata keçirilməsinin forma və metodları.

Polisin post-patrul xidmətinin fəaliyyətinin təşkilinin əsas elementləri. Post-patrul xidmətlərinin vahid dislokasiya üzrə təşkili.

Polisin post-patrul xidmətinin işinin təşkilində polis orqanlarının növbətçi hissələrinin iştirakının rolu və əhəmiyyəti.

Polisin post-patrul xidmətinin fəaliyyətinin təşkilində ictimaiyyətin iştirakı.

## MÖVZU № 3
## Polis orqanlarının müvəqqəti saxlama yerlərinin işinin təşkili

*Vaxt – 6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə– 2 saat*

### Mühazirənin qısa məzmunu

Daxili işlər orqanlarının şübhəli və təqsirləndirilən şəxslər üçün müvəqqəti saxlama yerlərinin təyinatı və fəaliyyətinin hüquqi əsasları.

Şübhəli və təqsirləndirilən şəxslərin MSY-yə qəbul olunmasının

əsasları və qaydaları.

Şübhəli və təqsirləndirilən, müstəsna hallarda məhkəmə prosesi və ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsi üçün istintaq təcridxanalarından və ya cəzaçəkmə müəssisələrindən polis orqanlarının müvəqqəti saxlama yerlərinə gətirilmiş şəxslərin saxlanılma qaydaları. MSY-də saxlanılan şəxslərin hüquq və vəzifələri. MSY-də saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi qaydaları.

Şübhəli və təqsirləndirilən şəxslərin MSY-də saxlama müddəti və rejimi. MSY-nin rəhbərliyinin cinayət-prosessual qanunvericiliyin ayrı-ayrı normalarının, məhkəmənin, istintaq və təhqiqat orqanlarının göstərişləri ilə bağlı vəzifələri. Şübhəli və təqsirləndirilən şəxslərin məsuliyyəti və cəzalandırılması tədbirlərinin tətbiqinin əsasları və qaydaları. İnzibati qaydada həbs edilmiş şəxslərin MSY-də saxlanılma rejimi və onların şübhəli və təqsirləndirilən şəxslərin saxlanılmasından fərqi.

MSY-də saxlanılan şəxslərin azad edilməsinin əsasları və qaydaları. MSY-də saxlanılan şəxslərin mühafizəsini və saxlanılma rejimini təmin edən naryadların hüquq və vəzifələri. MSY-nin mühafizəsini təmin edən naryadların növləri.

## MÖVZU № 4
## Polis sahə inspektorlarının işinin təşkili

*Vaxt – 8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə– 4 saat*

### Mühazirənin qısa məzmunu

Polis sahə inspektorları xidmətinin ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, hüquqpozmalara qarşı mübarizədə rolu. Polis sahə inspektorları xidmətinin təyinatı və onların fəaliyyətinin hüquqi əsasları.

Polis sahə inspektoru tərəfindən xidməti ərazi haqqında əldə ediləcək məlumatların təsnifatı. İnzibati ərazinin pasportu və planının məzmunu, doldurulması qaydaları.

Polis sahə inspektorlarının ümumi və fərdi profilaktik işinin

təşkili. Hüquq pozuntularının profilaktikası sahəsində polis sahə inspektorlarının fəaliyyətinin hüquqi əsasları. Polis sahə inspektorları tərəfindən profilaktiki uçota götürülən şəxslərin təsnifatı. Profilaktik uçota götürülmə və çıxarılma qaydaları.

Polis sahə inspektorlarının əsas vəzifələri və işinin nəticələrinin qiymətləndirilməsi.

## MÖVZU № 5
## Polis sahə inspektorlarının vətəndaşlarla xüsusi işinin təşkili

*Vaxt – 8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə– 4 saat*

### Mühazirənin qısa məzmunu

Polis sahə inspektorlarının vətəndaşlarla xüsusi işinin hüquqi əsasları. Polis sahə inspektorlarının vətəndaşlarla xüsusi işinin təşkili qaydası.

Xüsusi işin aparılmasının əsas istiqamətləri və bu sahədə polis sahə inspektorlarının əsas vəzifələri.

Xüsusi işin nəticələrinin rəsmiləşdirilməsi və qiymətləndirilməsi.

Xüsusi işin aparılması zamanı hüquqpozmaların qarşısının alınmasında vətəndaşların iştirakının təşkilati-hüquqi formaları

## MÖVZU № 6
## Daxili işlər orqanlarının profilaktik fəaliyyətinin təşkili

*Vaxt – 6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə– 2 saat*

### Mühazirənin qısa məzmunu

Daxili işlər orqanlarının profilaktik fəaliyyətinin hüquqi əsasları. Daxili işlər orqanları tərəfindən həyata keçirilən profilaktik fəaliyyətin əsas istiqamətləri.

DİO-nun profilaktik fəaliyyətinin məzmununa görə təsnifatı. DİO tərəfindən həyata keçirilən ümumi və fərdi profilaktik tədbirlərin məzmunu və səciyyəvi xüsusiyyətləri.

Daxili işlər orqanlarında profilaktik fəaliyyəti həyata keçirən subyektlərin növləri. Profilaktik fəaliyyətin əsas məqsədi.

Profilaktik fəaliyyəti həyata keçirən zaman daxili işlər orqanları tərəfindən tətbiq edilən əsas və əlavə metodlar.

Daxili işlər orqanları tərəfindən həyata keçirilən profilaktik fəaliyyətin məzmunu. Profilaktik fəaliyyətə cəlb edilən qüvvə və vasitələrin müəyyən edilməsi, analitik informasiya təminatı, planlaşdırılması.

Daxili işlər orqanlarının profilaktik işinin ümumiləşdirilməsi qaydaları.

## MÖVZU № 7
## Ailə-məişət münasibətləri zəminində törədilən cinayətlərin profilaktikası üzrə daxili işlər orqanlarının fəaliyyətinin təşkili

*Vaxt –8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–4 saat*

### Mühazirənin qısa məzmunu

Ailə-məişət zəminində törədilən cinayətlərin anlayışı. Məişətin strukturu. Ailə-məişət zəminində törədilən cinayətlərin səciyyəvi əlamətləri.

Ailə-məişət zəminində törədilən cinayətlərin xəbərdar edilməsi işində polis sahə inspektorlarının rolu.

Ailə-məişət zəminində törədilən cinayətlərin xəbərdar edilməsi məqsədi ilə əldə ediləcək məlumatların təsnifatı.

Daxili işlər orqanlarının ailə-məişət zəminində törədilən cinayətlərin xəbərdar edilməsi işinin təşkili mərhələləri.

Ailə-məişət zəminində törədilən cinayətlərin əsas səbəbləri.

Ailə-məişət zəminində törədilən cinayətlərin qarşısının alınması məqsədi ilə həyata keçiriləcək profilaktik tədbirlər sisteminin əsas

istiqamətləri. Ailə-məişət zəminində törədilən cinayətlərin xəbərdar edilməsi və qarşısının alınmasına yönələn profilaktik təsir tədbirlərinin tətbiq edilməsi formaları. Bu növ cinayətlərin xəbərdar edilməsi məqsədi ilə tərtib edilən profilaktik tədbirlər planının məzmunu.

## MÖVZU № 8
## Polisin nəzarəti altına vermə və ev dustaqlığı qətimkan tədbirlərinin tətbiq edilməsi sahəsində polis orqanlarının işinin təşkili

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2 saat*

### Mühazirənin qısa məzmunu

Polisin nəzarəti altına vermə və ev dustaqlığı qətimkan tədbirlərinin anlayışı və tətbiqinin hüquqi əsasları. Polisin nəzarəti altına verilmiş şəxslərə qoyulmuş hüquqi məhdudiyyətlərin növləri və onların məzmunu.

Polisin nəzarəti altına verilmiş şəxslərin polis orqanında qeydiyyatının aparılması qaydaları. Polisin nəzarəti altına verilmiş şəxslərin yaşayış yeri üzrə yoxlanılması qaydaları. Nəzarət altında olan şəxs tərəfindən, qoyulmuş məhdudiyyətlərin pozulması və ya hüquqa zidd hərəkətlər törədilməsi aşkar edildikdə polis əməkdaşlarının hərəkətlərinin ardıcıllığı.

Polisin nəzarəti altında olan şəxsin yaşayış məntəqəsinin hüdudlarından kənara getməsi üçün müəyyən olunmuş qaydaların məzmunu.

Ev dustaqlığı qətimkan tədbirinin tətbiq edilməsi qaydaları. Ev dustaqlığı qətimkan tədbiri seçilmiş şəxslərə qoyulan hüquqi məhdudiyyətlərin növləri və onların məzmunu. Ev dustaqlığı qətimkan tədbiri tətbiq edilmiş şəxslərə qoyulmuş hüquqi məhdudiyyətlərə polis əməkdaşları tərəfindən nəzarətin həyata keçirilməsi.

## MÖVZU № 9
## Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntularının xəbərdar edilməsi və qarşısının alınması.

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2 saat*

### Mühazirənin qısa məzmunu

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntularının xəbərdar edilməsi və qarşısının alınması işinin hüquqi əsasları. Yetkinlik yaşına çatmayanlar arasında nəzarətsizlik və hüquq pozuntularının profilaktikası sahəsində istifadə olunan əsas anlayışlar.

Yetkinlik yaşına çatmayanların hüquq pozuntularının qarşısının alınması sahəsində polis əməkdaşlarının vəzifələri. Yetkinlik yaşına çatmayanlar arasında nəzarətsizlik və hüquq pozuntularının profilaktikası üzrə daxili işlər orqanlarının əsas funksiyaları.

Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili. Haqqında fərdi profilaktik iş açılan yetkinlik yaşına çatmayanların təsnifatı. Profilaktiki qeydiyyata götürülməklə haqqında fərdi profilaktik iş tərtib edilən valideynlər və digər qanuni nümayəndələr.

Yetkinlik yaşına çatmayanlarla bağlı tərtib edilən fərdi profilaktik işdə toplanan sənədlər.

Yetkinlik yaşına çatmayanlara dair tərtib edilən fərdi profilaktiki işlərin dayandırıldığı və qeydiyyatda olan şəxslərin qeydiyyatdan çıxarılması halları.

Daxili işlər orqanlarında yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzlərinin fəaliyyətinin təyinatı və hüquqi əsasları. Təcridetmə mərkəzlərinə yerləşdirilən yetkinlik yaşına çatmayanların təsnifatı.

*DİON-nun inzibati fəaliyyəti – 3.*

# II BÖLMƏ

## Polis orqanları tərəfindən ayrı-ayrı inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması

## MÖVZU № 10
## İctimai qayda, ictimai təhlükəsizlik və idarəçilik qaydaları əleyhinə olan inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması.

*Vaxt –8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–4 saat*

### Mühazirənin qısa məzmunu

İctimai qayda və ictimai təhlükəsizliyə qəsd edən xətaların növləri, onların daxili işlər orqanları tərəfindən xəbərdar edilməsi və qarşısının alınması.

Xırda xuliqanlığın anlayışı və ona qarşı mübarizənin səciyyəvi xüsusiyyətləri. Xırda xuliqanlığın qarşısı alınan zaman polis əməkdaşları tərəfindən əldə ediləcək zəruri məlumatlar.

İctimai mənəviyyat əleyhinə olan inzibati xətaların daxili işlər orqanları tərəfindən xəbərdar edilməsi və qarşısının alınmasının inzibati-hüquqi metodları.

İdarəçilik qaydaları əleyhinə olan inzibati xətaların növləri və onların daxili işlər orqanları tərəfindən qarşısının alınması ,xəbərdar edilməsi işinin təşkili.

Polis işçisinin ictimai qaydanın mühafizə vəzifələrini icra edərkən qanuni tələblərinə qəsdən tabe olmama kimi inzibati xətanın qarşısı alınan zaman nəzərə alınacaq amillər.

# MÖVZU № 11
## Narkotik vasitələrlə bağlı və ictimai mənəviyyat əleyhinə olan inzibati xətaların xəbərdar edilməsi və qarşısının alınması.

*Vaxt –8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–4 saat*

### Mühazirənin qısa məzmunu

Sərxoşluq, alkoqolizm, narkomanlıq və fahişəliyin cəmiyyətin perspektiv inkişafını ləngidən sosial-neqativ təzahür kimi xarakteristikası.

Sərxoşluq və alkoqolizmin anlayışı, bu neqativ təzahürə qarşı mübarizədə daxili işlər orqanlarının əsas vəzifələri. Sərxoşluq və alkoqolizmə qarşı mübarizənin hüquqi əsasları. Daxili işlər orqanları tərəfindən sərxoşluq və alkoqolizmin qarşısının alınmasının taktiki üsulları.

Narkotik vasitələrlə bağlı istifadə edilən əsas anlayışların təsnifatı və onların məzmunu. Narkotik vasitələrlə bağlı hüquq pozuntularına qarşı mübarizə tədbirlərinin növləri və onların məzmunu.

Narkotik vasitələrlə bağlı törədilən hüquq pozuntularının qarşısının alınması məqsədi ilə ümummilli məlumat bankına göndərilən məlumatların növləri.

Avaralıqla məşğul olmanın anlayışı və məzmunu. Avaralığa qarşı mübarizə sahəsində daxili işlər orqanlarının fəaliyyətinin hüquqi əsasları.

Avaralığa qarşı mübarizə sahəsində daxili işlər orqanları tərəfindən tətbiq edilən inzibati məcburetmə tədbirlərinin növləri. Bu sahədə qarşılıqlı əlaqənin formaları.

Fahişəliyin anlayışı və zöhrəvi xəstəliklərin növləri, onlara qarşı mübarizə sahəsində daxili işlər orqanlarının əsas vəzifələri.

## MÖVZU № 12
## Təbiətin mühafizəsi sahəsində daxili işlər orqanlarının fəaliyyəti.

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2 saat*

### Mühazirənin qısa məzmunu

Daxili işlər orqanlarının təbiəti mühafizə fəaliyyətinin hüquqi əsasları. Ekoloji təhlükəsizlik və ətraf mühitin mühafizəsi sahəsində istifadə olunan əsas anlayışlar.

Daxili işlər orqanlarının təbiəti mühafizə fəaliyyətinin anlayışı.

Təbiətin mühafizəsi üzrə daxili işlər orqanlarının əsas vəzifələri. Təbiətin mühafizəsi sahəsində daxili işlər orqanlarının digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəsinin təşkilati hüquqi formaları və onların həyata keçirilməsinin mərhələləri.

Təbiətin mühafizəsi üzrə polisin digər orqanlarla qarşılıqlı əlaqəsi üzrə həyata keçirilən tədbirlərin və əldə ediləcək məlumatların növləri.

Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətaların növləri və onlara qarşı tətbiq edilən inzibati məcburetmə tədbirləri.

# III BÖLMƏ

## Polis orqanlarının inzibati fəaliyyətinin xətt-sahəvi növləri

## MÖVZU № 13
## Daxili işlər orqanları tərəfindən xüsusi icazə sisteminə nəzarətin həyata keçirilməsi

*Vaxt –8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–4 saat*

### Mühazirənin qısa məzmunu

Xüsusi icazə sisteminin anlayışı və bu sahədə daxili işlər orqanlarının fəaliyyətinin hüquqi əsasları. Xüsusi icazə sisteminin məzmununa daxil olan münasibətlər sistemi.

Daxili işlər orqanları tərəfindən nəzarət edilən xüsusi icazə sistemli obyektlərin təsnifatı.

Xüsusi icazə sisteminin həyata keçirilməsi üzrə daxili işlər orqanlarının əsas vəzifələri və hüquqları. Xüsusi icazə sistemi qaydalarının pozulması halları aşkar edildikdə polis orqanlarının hüquqları.

Xidməti və mülki silahın əldə edilməsi qaydaları. Əcnəbilər tərəfindən mülki silahın əldə edilməsi qaydaları.

Mülki silahın əldə edilməsinə xüsusi icazənin verilmədiyi hallar.

Daxili işlər orqanları tərəfindən xidməti və mülki silahın əldə edilməsi, saxlanması və daşınması qaydalarına nəzarətin həyata keçirilməsi.

Hüquqi və fiziki şəxslərə xidməti və mülki silahın alınmasına və saxlanılmasına verilmiş xüsusi icazənin ləğv edildiyi və silahın geri alındığı hallar.

## MÖVZU № 14
## Daxili işlər orqanlarının pasport-qeydiyyat fəaliyyəti

*Vaxt –8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–4 saat*

### Mühazirənin qısa məzmunu

Pasport-qeydiyyat sisteminin anlayışı və təyinatı. Pasport-qeydiyyat sisteminin təmin edilməsi üzrə daxili işlər orqanlarının fəaliyyətinin hüquqi əsasları.

Vətəndaşın şəxsiyyətini təsdiq edən sənədlərin növləri.

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin anlayışı və növləri. Şəxsiyyət vəsiqəsində göstərilən məlumatlar. Şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi və itirilmiş şəxsiyyət vəsiqələrinin əvəzinə yenisinin verilməsi.

Azərbaycan Respublikası vətəndaşının pasportunun anlayışı və tipləri. Pasportda göstərilən məlumatlar.

Pasport-qeydiyyat rejiminin anlayışı və növləri.

Pasport-qeydiyyat sisteminin təmin edilməsi üzrə daxili işlər orqanlarının əsas funksiyaları.

Azərbaycan Respublikası vətəndaşlarının yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınması. Şəxsin yaşayış yeri və olduğu yer anlayışlarının müqayisəli təhlili.

Daxili işlər orqanları tərəfindən pasport-qeydiyyat qaydalarına riayət olunmasına nəzarətin həyata keçirilməsi. Pasport-qeydiyyat sistemi qaydalarına riayət olunması üçün daxili işlər orqanları tərəfindən tətbiq edilən nəzarət növləri. Paspopt-qeydiyyat sistemi qaydalarına qəsd edən xətaların növləri və onlara qarşı tətbiq edilən inzibati-məcburetmə tədbirləri.

## MÖVZU № 15
## Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olmaları qaydalarına riayət edilməsinə nəzarətin təmin edilməsi

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2 saat*

### Mühazirənin qısa məzmunu

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti və onların Azərbaycan Respublikasında olmasının hüquqi əsasları.

Əcnəbilərin Azərbaycan Respublikasına gəlməsinin qadağan edildiyi hallar.

Əcnəbilərin Azərbaycan Respublikasından getməsinin müvəqqəti məhdudlaşdırıldığı hallar.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olmaları qaydaları.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qaydaları. Tranzitlə keçid zamanı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində məcburi dayanmasının sənədləşdirilməsi qaydaları.

Azərbaycan Respublikasında olma və tranzitlə keçid qaydalarının pozulmasına görə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məsuliyyəti.

## MÖVZU № 16
## Dövlət yol polisi xidməti.

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2 saat*

### Mühazirənin qısa məzmunu

Dövlət yol polisinin hüquqi vəziyyəti və təyinatı. Yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsində Dövlət yol polisinin əsas

vəzifələri.

Azərbaycan Respublikası DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin strukturu.

Dövlət yol polisinin fəaliyyətinin əsas istiqamətləri.

Nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət edilməsində Dövlət yol polisinin əsas vəzifələri.

Yol hərəkətinin təşkili sahəsində Dövlət yol polisinin əsas vəzifələri.

Yol-patrul xidmətinin əsas vəzifələri. Yol-patrul xidmətinin aparılmasının formaları. Yol-patrul xidmətinin aparılmasının üsulları.

Yol-nəqliyyat hadisələrinin anlayışı və onların təsnifatı. Yol-nəqliyyat hadisələrinin qeydiyyatının aparılması qaydaları.

Yol hərəkəti qaydaları və yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə icraatın təşkili qaydaları.

## MÖVZU № 17
## Nəqliyyatda daxili işlər orqanlarının xidməti

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2saat*

### Mühazirənin qısa məzmunu

Nəqliyyatda daxili işlər orqanlarının təyinatı və sistemi. Nəqliyyatda daxili işlər orqanlarının fəaliyyətinin hüquqi əsasları.

Nəqliyyatda polis orqanının anlayışı və bu sahədə istifadə olunan əsas anlayışlar. Nəqliyyatda daxili işlər orqanlarının ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində rolu.

Nəqliyyatda polis orqanlarının fəaliyyətinin səciyyəvi xüsusiyyətləri.

Nəqliyyatda daxili işlər orqanlarının fəaliyyətinin əsas prinsipləri.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində nəqliyyatda polis orqanlarının əsas vəzifələri.

Hüquq pozuntularının qarşısının alınması və xəbərdar edilməsi

sahəsində nəqliyyatda polis orqanlarının əsas vəzifələri.

Nəqliyyatda polis orqanlarının funksiyaları.

Dəmir yolu nəqliyyatında polis orqanlarının fəaliyyətinin təşkili.

Hava nəqliyyatında polis orqanlarının fəaliyyətinin təşkili.

Su nəqliyyatında polis orqanlarının fəaliyyətinin təşkili.

## MÖVZU № 18
## Daxili işlər orqanlarının mühafizə xidməti

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2 saat*

### Mühazirənin qısa məzmunu

Azərbaycan Respublikasında mülkiyyətin mühafizəsinin konstitusiya-hüquqi əsasları. Mülkiyyətin növləri və onların mühafizəsində dövlət orqanlarının fəaliyyəti.

Azərbaycan Respublikası DİN-in mühafizə xidmətinin fəaliyyətinin normativ-hüquqi əsasları, bu xidmətin əsas vəzifə və funksiyaları, sistemi və quruluşu. Mühafizə bölmələrinin növləri (gözətçi, hərbiləşdirilmiş, polis, mərkəzləşdirilmiş mühafizə məntəqələri) və onların hüquqi vəziyyətləri. Mühafizə polisinin dövlət, bələdiyyə və xüsusi mülkiyyətin, habelə ictimai qaydanın mühafizəsində rolu.

Mühafizə xidməti əməkdaşlarının əsas hüquq və vəzifələri. Obyektlərin mühafizəsi üçün müqavilələrin bağlanması və ləğv edilməsi. Mühafizəyə götürülən obyektlərin sənədləşdirilməsi və qəbul edilməsi qaydaları. Obyektlərin mühafizəsinin təşkili. Mühafizə polisi tərəfindən obyektlərin mühafizəsi üsulları. Mühafizə siqnalizasiyasının işə düşməsi hallarında mühafizə polisi naryadlarının (dəstələrinin) növbətçi hissələrinin, mərkəzləşdirilmiş mühafizə məntəqələrinin və tutma qruplarının hərəkətləri.

## III BÖLMƏ

### Xüsusi şəraitlərdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi

### MÖVZU № 19
### Kütləvi tədbirlərin keçirilməsi zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi

*Vaxt –8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–4 saat*

### Mühazirənin qısa məzmunu

Kütləvi tədbirlərin anlayışı və növləri. Kütləvi tədbirlərin səciyyəvi əlamətləri.

Toplantılar – kütləvi tədbirlərin keçirilməsinin əsas formalarından biri kimi. Toplantıların keçirilməsinin hüquqi əsasları. Toplantıların formaları və onların məzmunu.

Sərbəst toplaşmaq azadlığının məhdudlaşdırıldığı və qadağan edildiyi hallar.

Toplantıların keçiriləcəyi yerin və vaxtın məhdudlaşdırılması və ya qadağan edilməsi.

Toplantının keçirilməsi ilə əlaqədar polis orqanlarının səlahiyyətləri.

Kütləvi tədbirlər zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi ilə bağlı daxili işlər orqanlarının əsas vəzifələri.

Kütləvi tədbirlər zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə daxili işlər orqanlarının fəaliyyətinin mərhələləri.

## MÖVZU № 20
## İctimai qaydanın qrup halında pozulmasının və kütləvi iğtişaşların xəbərdar edilməsi və qarşısının alınmasında daxili işlər orqanlarının fəaliyyəti

*Vaxt –8 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–4 saat*

### Mühazirənin qısa məzmunu

Kütləvi iğtişaşların və ictimai qaydanın qrup halında pozulmasının anlayışı və səciyyəvi əlamətləri, onların baş verməsinin səbəbləri.

Kütləvi iğtişaşların xəbərdar edilməsi və qarşısının alınması ilə bağlı DİO-nun fəaliyyətinin əsas istiqamətləri.

Kütləvi iğtişaşlar və ictimai qaydanın qrup halında pozulmasının xəbərdar edilməsi və qarşısının alınmasında daxili işlər orqanlarının fəaliyyətinin hüquqi əsasları, təşkili və taktiki xüsusiyyətləri. Kütləvi iğtişaşların xəbərdar edilməsi, qarşısının alınması və ləğv edilməsi üçün polis orqanlarının tədbirlər planının hazırlanması və həyata keçirilməsində digər orqanların iştirakı.

Qüvvə və vasitələrin müəyyən edilməsində DİO-nun təşkilati tədbirləri. Qüvvə və vasitələrdən istifadə olunması və onların idarə edilməsi qaydaları. Kütləvi iğtişaşlar və ictimai qaydanın qrup halında pozulması şəraitində fəaliyyətin forma və metodları, şəxsi heyətin təlimatlandırılması və onların xüsusi hazırlığı. İctimai qaydanın qrup halında pozulmasının qarşısının alınması və ləvğ edilməsində fəaliyyət göstərən polis dəstələrinin növləri və onların əsas taktiki hərəkətləri.

Kütləvi iğtişaşlar və ictimai qaydanın qrup halında pozulmasının xəbərdar edilməsi və qarşısının alınmasında polis orqanları tərəfindən aparılan profilaktik tədbirlər, onların növləri və həyata keçirilməsinin formaları.

## MÖVZU № 21
## Təbii fəlakətlər, epidemiya, epizootiya və texniki qəzalar şəraitində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi

*Vaxt –6 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*
*Təcrübə–2 saat*

### Mühazirənin qısa məzmunu

Təbii fəlakətlər, epidemiyalar, epizootiyalar və texniki qəzaların anlayışı, növləri və onların səciyyəvi xüsusiyyətləri. Bu hadisələrin neqativ nəticələrinin xəbərdar edilməsi, qarşısının alınması və aradan qaldırılmasında dövlət tədbirləri.

Təbii fəlakətlər, epidemiyalar, epizootiyalar və texniki qəzalar şəraitində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində daxili işlər orqanlarının fəaliyyətinin hüquqi nizamlanması. Xüsusi şəraitlər zamanı polis orqanlarının vəzifələri. Bu şəraitlərdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinin xüsusiyyətləri. DİO-nun planlarının hazırlanması və onların məzmunu, bu şəraitlərdə cəlb edilən qüvvə və vasitələr, şəxsi heyət tərəfindən xidmətin aparılması, cinayətlərin xəbərdar edilməsi və qarşısının alınması, xüsusi əhəmiyyətli obyektlərin mühafizəsinin gücləndirilməsi.

Təbii fəlakətlərin, epidemiyaların, epizootiyaların yayılmasının qarşısının alınması və ləğv edilməsi sahəsində DİO-nun həyata keçirdiyi inzibati-xəbərdarlıq tədbirlərinin növləri.

Təbii fəlakətlərin, epidemiyaların, epizootiyaların və texniki qəzaların xəbərdar edilməsi, qarşısının alınması və ləğv edilməsi tədbirlərinin həyata keçirilməsi sahəsində daxili işlər orqanlarının digər dövlət orqanları ilə qarşılıqlı əlaqəsi.

## MÖVZU № 22
## Fövqəladə vəziyyət rejimi və dini etiqad azadlığının təmin edilməsində daxili işlər orqanlarının fəaliyyəti

*Vaxt –4 saat*
*Mühazirə – 2 saat*
*Seminar – 2 saat*

### Mühazirənin qısa məzmunu

Fövqəladə vəziyyətin anlayışı, məzmunu və əhəmiyyəti. Fövqəladə vəziyyətin tətbiq edilməsinin əsasları və elan edilməsi dövründə dövlət tərəfindən müəyyən edilən məhdudiyyətlər. Fövqəladə vəziyyət dövründə yaradılan idarəçilik sisteminin təşkilati formaları, müvəqqəti icra hakimiyyətinin səlahiyyətləri, komendaturaların əsas vəzifələri. Fövqəladə vəziyyətin müddəti, onun uzadılması və ləğv edilməsi qaydası.

Fövqəladə vəziyyətin tətbiq edilməsində daxili işlər orqanlarının inzibati fəaliyyətinin hüquqi və təşkilati formaları.

Dini qurumların növləri və onların hüquqi vəziyyəti.

Dini etiqad azadlığı haqqında qanunvericiliyə riayət edilməsinə nəzarətin həyata keçirilməsində dövlət orqanlarının səlahiyyətləri.

Dini etiqad azadlığı haqqında qanunvericiliyin icrasına nəzarət edilməsində daxili işlər orqanlarının fəaliyyəti.

# ƏD Ə B İ Y Y A T  S İ Y A H I S I:

## I Normativ-hüquqi aktlar


1. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci il.
2. «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu, 28 oktyabr 1999-cu il.
3. «Polis haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 noyabr 1999-cu il.
4. «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 29 iyun 2001-ci il.
5. «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 18 iyul 2001-ci il.
6. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 30 iyun 2001-ci il.
7. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, 2000-ci il.
8. «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla hüquqi tənzimlənmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 29 avqust 2000-ci il.
9. «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikasının Qanunu, 14 iyun 1994-cü il.
10. «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında» Azərbaycan Respublikasının Qanunu, 14 iyun 1994-cü il.
11. «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanunu, 4 aprel 1996-cı il.

12. «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 8 dekabr 1999-cu il.
13. "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu, 14 aprel 2000-ci il.
14. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu, 8 iyun 1999-cu il.
15. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu, 2 mart 2000-ci il.
16. "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanunu, 20 aprel 2004-cü il.
17. «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikasının Qanunu, 10 iyun 1997-ci il.
18. «Xidməti və mülki silah haqqında» Azərbaycan Respublikasının Qanunu, 30 dekabr 1997-ci il.
19. «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu, 13 noyabr 1993-cü il.
20. «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu, 24 dekabr 2002-ci il.
21. «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu, 19 may 1998-ci il.
22. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu, 9 aprel 2002-ci il.
23. «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu, 31 may 2002-ci il.
24. «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının Qanunu, 9 avqust 2005-ci il.
25. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının

Qanunu, 28 iyun 2005-ci il.

26. «Cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 9 avqust 1994-cü il.
27. «Polis sahə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 12 mart 2007-ci il.

## *Azərbaycan Respublikası DİN-in normativ aktları*

1. Azərbaycan Respublikası DİN-in 03.XI.2012-ci il tarixli 055 nömrəli qərarı: «Azərbaycan Respublikası DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsi haqqında Əsasnamənin təsdiq edilməsinə dair».
2. Azərbaycan Respublikası DİN-in 23.07.2007-ci il tarixli 388 nömrəli əmri: «Daxili işlər orqanlarında profilaktik işin təşkili haqqında Təlimatın təsdiq edilməsi barədə».
3. Azərbaycan Respublikası DİN-in 30 may 2001-ci il tarixli 212 nömrəli əmri: “Polisin post-patrul xidməti Nizamnaməsinin təsdiq edilməsi barədə”.
4. Azərbaycan Respublikası DİN-in 14 yanvar 2013-cü il tarixli Q1-001-13 nömrəli qərarı: “Polis orqanlarının MSY-də saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimatın təsdiq edilməsi haqqında”.
5. Azərbaycan Respublikası DİN-in 19.01.2012-ci il tarixli Q2-001-12 nömrəli qərarı: “Yol-patrul xidməti haqqında Təlimatın təsdiq edilməsi barədə”.
6. Azərbaycan Respublikası DİN-in 27 sentyabr 1999-cu il tarixli 326 nömrəli əmri: “Yol nəqliyyat hadisələrinin uçotunun aparılması barədə”.
7. Azərbaycan Respublikası DİN-in 12.01.2012-ci il tarixli Q1-001-12 nömrəli qərarı: «Yol hərəkəti qaydaları və yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi qaydaları əleyhinə olan inzibati

xətalar haqqında işlər üzrə icraatın təşkilinə dair Təlimatın təsdiq edilməsi barədə».

8. Azərbaycan Respublikası DİN-in 24.02.2007-ci il tarixli 111 nömrəli əmri: «Daxili işlər orqanlarının yetkinlik yaşına çatmayanlar üçün müvəqqəti təcridetmə mərkəzlərinin fəaliyyətinin təşkili haqqında Əsasnamənin təsdiq edilməsi barədə».
9. Azərbaycan Respublikası DİN-in 24.02.2007-ci il tarixli 110 nömrəli əmri: «Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikasında daxili işlər orqanlarının fəaliyyətinin təşkilinə dair Təlimatın təsdiq edilməsi haqqında»
10. Azərbaycan Respublikası DİN-in 03.09.2012-ci il tarixli Q21-001-12 nömrəli qərarı «Daxili işlər orqanlarında icazə sisteminin təşkili qaydalarına dair Təlimatın təsdiq edilməsi haqqında».
11. Azərbaycan Respublikası DİN-in 24.10.2003-cü il tarixli 405 nömrəli əmri: «Azərbaycan Respublikası Prezidentinin 27.09.2003-cü il tarixli 935 nömrəli Fərmanının elan edilməsi barədə» («Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimatın təsdiq edilməsi haqqında»).
12. Azərbaycan Respublikası DİN-in 14.05.2002-ci il tarixli 186 nömrəli əmri: «Daxili işlər orqanlarında analitik işin və planlaşdırmanın təşkili qaydalarının təsdiq edilməsi barədə».
13. Azərbaycan Respublikası DİN-in 19.09.2012-ci il tarixli Q48-001-12 nömrəli qərarı: «Polisin nəzarəti altına vermə və ev dustaqlığı qətimkan tədbirlərinin tətbiq edilməsi qaydaları haqqında Təlimatın təsdiq olunması barədə».
14. Azərbaycan Respublikası DİN-in 06.09.2000-ci il tarixli 356 nömrəli əmri: «Kütləvi tədbirlər zamanı ictimai asayişin təmin edilməsi barədə».
15. Azərbaycan Respublikası DİN-in 2 sentyabr 2010-cu il tarixli 550 №-li əmri: «Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınması, şəxsiyyəti təsdiq edən sənədlərlə təmin olunması və qeydiyyatdan çıxarılması qaydaları haqqında Təlimatın

təsdiq edilməsi barədə».

16. Azərbaycan Respublikası DİN-in 16.09.2005-ci il tarixli 400 nömrəli əmri: «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında Azərbaycan Respublikası Qanununun və onun tətbiqinə dair Azərbaycan Respublikası Prezidentinin Fərmanının elan edilməsi barədə.

17. Azərbaycan Respublikası DİN-in 26.03.2007-ci il tarixli 175 nömrəli əmri: «Daxili işlər orqanları tərəfindən vətəndaşlara ümum-vətəndaş pasportlarının verilməsi qaydalarına dair Təlimatın təsdiq edilməsi barədə».

18. Azərbaycan Respublikası DİN-in 16.06.2000-ci il tarixli 225 nömrəli əmri: «Ərazi və xətt polis orqanları arasında inzibati ərazi bölgüsün müəyyənləşdirilməsi tədbirlərinə dair».

19. Azərbaycan Respublikası DİN-in 30.10.2006-cı il tarixli 480 nömrəli əmri: «Polis orqanlarının inzibati həbs olunanların saxlanılma məntəqələri haqqında Əsasnamə»nin və «Polis orqanlarının inzibati həbs olunanların saxlanılma məntəqələrində daxili nizam Qaydalarının təsdiq edilməsi haqqında».

20. Azərbaycan Respublikası DİN-in 25 iyun 2009-cu il tarixli 356 №-li əmri: «İnzibati sahə haqqında Əsasnamənin təsdiq edilməsi barədə».

28. Azərbaycan Respublikası DİN-in 25 iyun 2009-cu il tarixli 358 №-li əmri: «Polis sahə məntəqəsi haqqında Təlimatın təsdiq edilməsi barədə».

29. Azərbaycan Respublikası DİN-in 25 iyun 2009-cu il tarixli 357 №-li əmri: «Hüquq qaydasının təmini üzrə İctimai Şura haqqında Əsasnamənin təsdiq edilməsi barədə».

## *II. Dərsliklər və dərs vəsaitləri*

1. V.Abışov, H.Eyvazov. Daxili işlər orqanlarının inzibati fəaliyyəti. Ümumi hissə. Dərslik. Bakı, 2008.

2. V.Abışov, H.Eyvazov. Daxili işlər orqanlarının inzibati fəaliyyəti.

(sxemlərdə). Ümumi hissə. Bakı,2006.

3. A.Mirzəyev, F.Mövsümov, B.Bədəlov, V.Mansurov. Daxili işlər orqanlarının inzibati fəaliyyəti (sxemlərdə). Xüsusi hissə. Bakı, 2005.
4. V.Abışov, H.Eyvazov. Daxili işlər orqanlarının inzibati fəaliyyəti. 100 suala 100 cavab. Ümumi hissə. Bakı, 2005.
5. A.Mirzəyev, F.Mövsümov, B.Bədəlov, A.Əbilov, V.Mansurov. Daxili işlər orqanlarının inzibati fəaliyyəti. 100 suala 100 cavab. Xüsusi hissə. Bakı, 2006.
6. В.Н.Воробьев, С.И.Голик, Б.И.Тишкевич. Руководство деятельностью участковых инспекторов милиции в звене горрайорганов внутренных дел. Москва, 1989.
7. В.К.Чижевский. Организация деятельности службы участковых инспекторов милиции. Киев, 1988.
8. А.В.Крючков, И.П.Портнов. Выявление участковыми инспекторами милиции лиц, подлежащих профилактическому воздействию. Москва, 1987.
9. Проблмы совершенствования деятельности участкового инспектора милиции. Межвузовский сборник научных трудов. Киев, 1989.
10. С.М.Забелов, Г.Р.Поволоцкий. Взаимодействие участкового инспектора милиции с общественными формированиями по охране правопорядка. Минск, 1989.
11. Ш.Ш.Килясханов. Организация и совершенствование деятельности службы участковых инспекторов милиции в горрайорганах. Москва, 1990.
12. Н.П.Мышляев. Работа участкового инспектора милиции по предупреждению преступлений в сфере семейно-бытовых отношений. Москва, 1987.
13. Ю.В.Кваша. Организация работы участкового инспектора милиции по изучению населения на административном участке.
14. Б.Г.Морохин, Д.В.Гребельский. Основы работы с доверенными лицами милиции. Москва, 1973.

15. В.А.Афанасьев. Организация работы участкового инспектора милиции с доверенными лицами. Москва, 1972.
16. Организация работы участковых инспекторов милиции. Под редакцией Ф.Е.Колонтаевского. Москва, 1990.
17. Вопросы совершенствования деятельности участковых инспекторов милиции: Всесоюзный научно-исследовательский институт МВД СССР, 1989.
18. А.Р.Коренев. Административная деятельность органов внутренних дел. Учебник. Часть общая. Москва, 1999.
19. А.Р.Коренев. Административная деятельность органов внутренних дел. Часть особенная. Москва, 2001.
20. Л.Л.Попов. Административная деятельность ОВД. Учебник. Москва, 1987.
21. Л.Л.Попов. Административная деятельность ОВД. Учебник. Москва, 1983.
22. Л.Л.Попов. Административное право и административная деятельность ОВД. Учебное пособие. Москва, 1990.

Naşir: Ceyhun Əliyev
Texniki redaktor: Ülvi Arif
Dizayner: İradə Əhmədova

---

Ş.ç.v. 15; tiraj 200
«Ecoprint» nəşriyyatının mətbəəsində
çap olunmuşdur
tel.: +99455 216 09 91